***Hazirlandi:***

| *Struktur bölmə* | *Ad və soy adı* | *İmza və tarix* |
|---|---|---|
| Maaliyə şöbəsi | Maryeta Pirts | |
| Hüquq xidməti | Barbka Rus Krumberqer | |

***Təsdiq edildi:***

---

| *Struktur bölmə* | Ad və soy adı | *İmza və tarix* |
|---|---|---|
| Şirkətin fəaliyyətinin müəyyən olunmuş tələblərə müvafiqliyinin təmin edilməsi üzrə səlahiyyətli şəxs | Qreqor Redek | |
| Kadrlar şöbəsi | Dori SilviyaQorents | |
| İdarə Heyətinin səlahiyyətli üzvü | David Bratoj | |

***Təsdiq edildi*** *Tarix*

İdarə heyəti

15.07.2020-ci il idarə heyətinin müntəzəm iclasında ..........saylı qərar ilə təsdiq edilmişdir, KRKA d.d.,Novo.mesto.

**Qüvvəyə mindiyi tarix: 1.8.2020**

| *Əvvəlki nəşrlər* | |
|---|---|
| *Nəşr* | *Dəyişikliyin təsviri* |
| İdarə heyətinin .... saylı qərarı | Hər iki ildən bir müntəzəm yoxlama keçirilir. Məzmun müvafiqir, aydınlıq üçün bəzi redaksiya dəyişiklikləri daxil edilmişdir və əlaqələr yenidir. Dəyişikliklərlə bağlı əməkdaşların əlavə tədrisi tələb olunmur, sənəd əvvəlki variant kimi yayılır. |
| İdarə Heyətinin ... saylı qərarı | KRKA şirkətiniin Etika kodeksini əvəzləyən şirkətin davranış Kodeksinin təsdiq olunması “KRKA, tovarna zdravil, d.d., Novo mesto” 2.12.2009. |
| İdarə heyətinin 219/2009 saylı qərarı | Şirkətin etika kodeksi “KRKA, tovarna zdravil, d.d., Novo mesto” 2.12.2009. |

# KRKA şirkətinin davranış Kodeksi

GİRİŞ MÜDDƏALARI

ƏSAS ETİK PRİNSİPLƏR
Hörmət
Əməkdaşlıq
Mükəmməllik
İnzibati rəhbərliyin iş etikası

KORPORATİV DÜRÜSTLÜK
Saxtakarlıq və korrupsiyanın qadağan olunması
Maraqların toqquşması
Preparatların tanıdılması
Tədarükçülər və işgüzar tərəfdaşlar
Dürüst rəqabət

CƏMİYYƏT QARŞISINDA MƏSULİYYƏT

ŞİRKƏTİN FƏALİYYƏTİNİN MÜƏYYƏN OLUNMUŞ TƏLƏBLƏRƏ MÜVAFİQLİYİNİN TƏMİN EDİLMƏSİ ÜZRƏ SƏLAHİYYƏTLİ ŞƏXS

QANUNAZİDD DAVRANIŞLA BAĞLI MƏLUMAT

YEKUN MÜDDƏALAR

## GİRİŞ MÜDDƏALARI

KRKA şirkətinin davranış Kodeksi (gələcəkdə “kodeks” adlanacaq) Novo mesto şəhərində yerləşən KRKA d.d. şirkətində və onun filiallarında (gələcəkdə:KRKA) bütün KRKA əməkdaşları üçün məcburi xarakter daşıyan etik davranışın prinsip və qaydalarını, vicdanlı işgüzar təcrübə və davranış normalarını müəyyən edir.

KRKA şirkətinin bütün əməkdaşlarının əsas prinsipi yüksək mənəvi dəyərlərə, dürüstlük,sədaqət, professionallıq prinsiplərinə əməl etməklə və beynəlxalq təşkilatların farmasevt sənayesi üzrə qəbul etdiyi norma və tövsiyələrə, cəmiyyətin daxili qanunlarına müntəzəm riayət edən ardıcıl davranışdan ibarətdir.

Kodeks KRKA-nın internet səhifəsində dərc olunmuşdur: https://www.krka.biz/sl/. Buna görə də, KRKA şirkəti ilə əməkdaşlıq zamanı Kodeksin müddəalarına riayət etmələri gözlənilən işgüzar tərəfdaşlarımızın hamısı bu sənəd ilə tanış ola bilərlər.

## ƏSAS ETİK PRİNSİPLƏR

KRKA şirkətinin əsas etik prinsipləri həm əməkdaşlar arasında qarşılıqlı əlaqə, həm də başqa şəxslərlə münasibətdə hər şeydən əvvəl hörmət, əməkdaşlıq, rəhbərliyin mükəmməlliyi və dürüstlükdən ibarətdir.

KRKA şirkətinin əməkdaşları olaraq, biz əsas prinsiplərə riayət etməklə, KRKA şirkətinin gələcək xəyallarını gercəkləşdirdiyimizi, planlaşdırılmış biznes fəaliyyətini həyata keçirdiyimizi və KRKA şirkətinin işgüzar nüfuzunun qayğısına qaldığımızı, eyni zamanda, işlədiyimiz ictimai mühitin inkişafına töhfə verdiyimizi dərk edirik.

## Hörmət

Fəaliyyətimizin əsasını hər kəs üçün bərabər imkanların yaradılması və hüquqi normalara riayət edilməsi, həmçinin, bizi əhatə edənlərə və ətraf mühitə qarşı etik münasibət təşkil edir. **Biz** beynəlxalq səviyyədə qəbul edilmiş prinsip və tövsiyələrə daxil edilən **insan haqqlarına hörmət edirik.** Fəaliyyətdə olduğumuz dövlətlərin hər birində insan hüquqları sahəsindəki bütün hüquqi norma və standartlara riayət edirik.

Biz hər bir insanın şərəf və ləyaqətinə, şəxsi həyatına hörmət edərək, söz və əqidə azadlığına hörmət edərək, başqalarına qarşı da sayqı ilə yanaşırıq. Təhsil səviyyəsindən və ya vəzifəsindən asılı olmayaraq, əməkdaşlarımızla səmimi münasibətlər saxlayırıq. Qeyri-dürüst və qanunsuz işlərin istənilən forması qadağan edilir.

**Əməkdaşlar arasında hər hansı ayrıseçkilik qadağan edilmişdir.** irqi və ya etnik mənsubiyyəti, milli və ya sosial mənsubiyyəti, cinsi, dərisinin rəngi, sağlamlıq vəziyyəti, əlilliyi, dini etiqadı və ya inancı, yaşı, cinsi oriyentasiyası, ailə vəziyyəti, həmkarlar təşkilatına üzv olub-olmadığı, maliyyə durumu və ya başqa şəxsi vəziyyətlərinə diqqət yetirmədən, əməkdaşlarımıza qarşı eyni münasibət bəsləyirik.

**İş yerində istənilən növ təqib olunma və məsxərəyə qoyulmaq qadağandır.** Biz vicdanlı iş şəraitini, açıq və yaradıcı fəaliyyət mühitini dəstəkləyərək, əməkdaş, rəhbər işçi və ya üçüncü şəxslər tərəfindən heç kimin psixoloji təzyiq, seksual və ya başqa təqib olunma forması və ya məsxərəyə qoyulmağa məruz qalmayan iş mühiti yaradırıq. Hər kəs digərinin ləyaqətinə təhlükə olan yaramaz davranışdan çəkinməlidir. Əməkdaşımızın yaramaz hərəkətini gördükdə, bu barədə tabeçiliyində olduğumuz birbaşa rəhbərliyə və ya struktur bölmə rəhbərinə dərhal məlumat verməliyik. Rəhbəriyin qanunazidd davranışını gördüyümüz təqdirdə, bu barədə onun birbaşa tabeçiliyində olduğu rəhbərə və ya təqiblə bağlı halların araşdırılması üzrə səlahiyyətli şəxsə məlumat veririk. Hər bir əməkdaş təqib halı barədə səlahiyyətli şəxslərin hər hansı birinə məlumat verə bilər.Təqib halı baş verdiyi zaman davranış qaydası və təqiblə bağlı məsələni araşdıran səlahiyyətli Şəxslərin Siyahısı Krkanet-də, KRKA şirkətinin daxili internet səhifəsində dərc edilmişdir (Təqib baş verdiyi zaman davranış qaydaları).

**Biz** əməkdaşlarımızın sağlamlığının riskə məruz qalmadığı **təhlükəsiz və sağlam iş mühitini dəstəkləyir və** müntəzəm olaraq mümkün sağlamlıq riskinin və bədbəxt hadisələrin baş verməsinin azaldılması, aradan qaldırılması ilə bağlı tədbirlər görürük. Hamı əməyin təhlükəsizliyi və sağlamlığın qorunması ilə bağlı bütün norma və daxili aktlara riayət etməlidir. Təhlükəsiz və sağlam iş mühiti bizim əsas hədəfimiz olduğundan, əməkdaşlarımız iş yerində alkoqol, narkotik və ya başqa qadağan olunmuş maddələrin təsiri altında işləyə və ya iş yerində ola bilməzlər.

KRKA şirkətinin bütün ərazisində tütündən istifadə qadağandır. İşimizi yerinə yetirərkən, öz həyat və sağlamlığımızı, həmçinin başqalarının həyat və sağlamlığını təhlükəyə məruz qoymamaq üçün işimizi çox diqqətlə yerinə yetirməliyik. İş avadanlığı, təhlükəsizlik sistemi cihazı və fərdi mühafizə vasitələri öz məqsədləri üçün və işəgötürənin təlimatlarına müvafiq olaraq istifadə edilməli, onlarla ehtiyyatla davranılmalı və işlək vəziyyətdə saxlanılmalıdırlar.

Hər bir əməkdaş əməyin təhlükəsizliyi və sağlamlığın qorunması, yanğından mühafizə,əməyin mühafizəsi sahələri üzrə təhsil və təlim keçməli, həmçinin öz rəhbərlərinə iş mühitindəki çatışmazlıqları və iş yerindəki bütün təhlükələri göstərməlidir.

## Əməkdaşlıq

Fəaliyyət göstərdiyimiz bütün mühitlərdə müxtəlif maraqlı tərəflərlə əməkdaşlıq edirik: aksionerlər, əməkdaşlar, tədarükçülər, alıcılar, müəssisələr, vətəndaş cəmiyyəti təşkilatları və ayrı-ayrı şəxslərlə. Biz qarşılıqlı hörmətə, fərqli fikirlərin nəzərə alınmasına əsaslanmış və KRKA dəyərlərinin artırılmasına yönəldilmiş əməkdaşlığa dəstək veririk.

Tibbi xidməti yaxşılaşdıraraq, professional bilik və bacarığın mübadiləsini təmin edərək pasiyent və istifadəçilərə böyük fayda gətirən səhiyyə, farmasevtika və veterinariya sahələri ilə bütün əlaqələr preparatlarımız haqqda professional və obyektiv məlumatların təmin edilməsi məqsədini güdür və bu münasibətlər ciddi qaydalar, daxili aktlar, həmçinin yüksək etik standartlarla tənzimlənir.

Biz KRKA məhsulları, onların keyfiyyəti, təhlükəsizliyi və effektivliyi haqqda informasiyanı **professional ictimaiyyətə** obyektiv şəkildə təqdim edirik. Onların işlənib-hazırlanması, istehsalı, satışı və tanıdılması zamanı biz tibbi təşkilatlarla, həmçinin xəstəxana, klinika, universitet və başqa təhsil müəssisələri, dərman prepartaları üzrə tənzimləyici orqan və dövlət təşkilatları ilə əməkdaşlıq edir, bütün normalara riayət edərək şəffaf sənədləşdirmə aparırıq.

Biz **şirkətin fəaliyyəti ilə bağlı bütöv və şəffaf hesabat** və tənzimləyici orqanlar, aksionerlər, investorlar, kütləvi informasiya vasitələri, analitiklər və geniş ictimaiyyətə tam, obyektiv, vaxtında və müvafiq informasiya verilməsi prinsiplərinə riayət edirik. Bütün hesabatlar, maliyyə və işgüzar məlumatlar hesabatla bağlı beynəlxalq norma və standartlara müvafiq olaraq hazırlanır. Fəaliyyətimiz və hesabatımıza gəlincə, uğurlarımızın ictimaiyyətin geniş təbəqəsi ilə sıx bağlı olduğunu və bizim həmişə şirkət iştirkaçılarının xeyrinə fəaliyyət göstərməli olduğumuzu dərk edirik.

## Mükəmməllik

Biz **effektiv, keyfiyyətli və təhlükəsiz məhsullar** tədarük edirik. Məhsulların effektivlik, keyfiyyət və təhlükəsizliyi işlənib-hazırlanmadan istifadəyə qədər- həyat dövrünün bütün mərhələlərində, geri rəylər vasitəsi ilə də izlənilir. Bizdə dərman vasitələrinin əks reaksiyaları haqqda təcili tədbirlər göstərməyə imkan verən xəbərdarlıq və informasiya toplama sistemi artıq fəaliyyətdədir.

Tədqiqat və işlənib-hazırlamağa yatırımlar edilməsi, həmçinin, tibbi mütəxəssis və işgüzar tərəfdaşlarımızla əməkdaşlıq vasitəsilə biz farmasevtika sahəsində bilik səviyyəmizi artırır, keyfiyyətli dərman preparatlarının hazırlanmasına töhvə veririk. Biz tədqiqatların müstəqillik və professionallığına təminat verir, onarın nəticələrini saxlayır, haqqlarında məlumat verir və hər zaman preparatlarla bağlı geri əlaqəni nəzərə alırıq.

Pasiyent, istifadəçi, tibb işçiləri və digər mütəxəssis, tənzimləyici orqan, işgüzar tərəfdaş və alıçılara obyektiv, tam və vaxtında informasiya verilməsi bizim rəhbər prinsipimizdir.

İşimizi yerinə yetirərkən aldığımız bütün informasiya şirkətin mülkiyyəti olduğundan, hətta KRKA şirkəti ilə əmək münasibətlərini kəsdikdən sonra belə, onu qoruyub saxlamalıyıq. Həssas və məxfi informasiyanın və ya ona əsaslanan biznes-əməliyyatın açıqlanması ciddi qadağan edilərək, şirkət və informasiyanı açıqlayan şəxs əleyhinə əmək, inzibati, mülki və cinayət təhqiqatına səbəb ola bilər.

Şirkətin əməkdaşları məxfi olan və ya öz xarakterinə görə məxfi hesab edilən **informasiyanı** lazımi şəkildə qoruyub-saxlamalıdır. Onun şəxsi maraqlar naminə istifadə edilməsi və ya əvvəldən razılıq alınmadan şirkət daxilində və ya xaricində üçüncü şəxsə təqdim edilməsinə icazə verilmir. Buraya əsasən, xüsusi həssas işgüzar informasiya, texniki və kommersiya məlumatları, şirkət və əməkdaşları haqqda başqa bilgi, həmçinin üçüncü şəxslərlə bağlı məlumatlar da daxildir. Əməkdaşlar informasiyanın qorunması və mühafizəsi ilə bağlı bütün qanun və qaydalara əməl etməlidirlər. Bundan başqa, biz bütün məxfi məlumatları, işgüzar tərəfdaşlarımız və üçüncü şəxslərin intellektual mülkiyyətini lazımi şəkildə qoruyuruq (İşgüzar sirrin müəyyən edilməsi və qorunması).

Həssas və məxfi informasiyadan söz getdiyinə əmin olmadığımız zaman, biz onunla yüksək məxfi məlumat kimi davranmalı və informasiya sahibi və ya Hüquqi xidməti ilə məsləhətləşməliyik. Biz təmiz masa və təmiz ekran prinsipinin tərəfdarıyıq. Həssas məlumatları elektron poçt ilə göndərdyimiz zaman əlavəni icazəsiz istifadədən qorumağı təmin etməliyik. Elektron poçt ilə zərcirvari məktubların, əyləncəli hekayələrin və başqa qeyri-münasib məzmunlu məlumatların göndərilməsinə icazə verilmir. Naməlum şəxs tərəfindən məlumat göndərildiyi təqdirdə, kiber hücumun qurbanı olma ehtimalı olduğundan yoxlanılmamış istinad və ya mənbəyi bəlli olmayan əlavələri açmaq olmaz. KRKA şirkəti informasiyanın qorunması ilə bağlı təşkilat, rəhbərlik və fəaliyyətin koordinasiyasına cavabdeh olan **informasiya təhlükəsizliyi üzrə səlahiyyətli şəxsə** malikdir. Əməkdaşlar xüsusilə, bu sahədə çatışmazlıqlar gördüyü zaman bu şəxsə təkliflərlə müraciət edə və ya öz fikirlərini ona bildirə bilərlər (İnformasiya texnologiyasından müvafiq isifadə qaydaları).

**Şəxsi məlumatlara** biz şəffaflıq və təhlükəsizliyin qayğısına qalaraq, həmçinin şəxsi məlumatların qorunması qaydalarına müvafiq olaraq lazımi diqqətlə yanaşırıq. Onlar qanunvericiliyin tələblərini yerinə yetirmək və KRKA şirkətiniin qanuni maraqlarını həyata keçirmək üçün lazım olan həcmdə toplana və ya şəxsi razılıq əsasında istənilən an geri çəkilə bilər. Şəxsi məlumatlarımızın qorunması ilə bağlı hüquqlarımızın pozulduğunu hesab etdiyimizdə, birbaşa rəhbərlik edən şəxsə məsləhət üçün müraciət edə və ya **şəxsi məlumatların qorunması üzrə səlahiyyətli şəxslə** məsləhətləşə bilərik. Şəxsi məlumatların qorunmasının pozulmasını bildikdə, 24 saatdan gec olmayaraq bu haqqda şəxsi məlumatların qorunması üzrə səlahiyyətli şəxsə xəbər verməliyik (dataprotection.officer@krka.biz). Şirkətin konkret filialında şəxsi məlumatların qorunması üzrə səlahiyyətli şəxslə əlaqə detalları daxili internet səhifəsində yerləşir ( Şəxsi məlumatların qorunması haqqda müddəalar).

Biz **şirkətimizin nüfuzunun** qayğısına qalırıq. Bütün əməkdaşlar KRKA şirkətinin strateji əhəmiyyətli məqsədləri, missiyası, gələcəyə və dəyərlərə baxışı ilə tanış olmalı və beləliklə, qarşılıqlı inam, hörmət, fasiləsiz təhsil, həmçinin məsuliyyətli və effektiv iş ənənəsi yaratmalıdırlar. İnformasiya əməkdaşların daxili və ümumi toplantıları (görüşlər, müntəzəm dövrü tədris),həmçinin daxili internet səhifələri, şirkətin daxili qəzeti və elektron bildirişlər vasitəsilə paylaşılır.

KRKA ərazisində reklam və ya şəxsi məqsədlər üçün lentə alınmış bütün foto, video və səsli materiallar, həmçinin mətnlərin nəşri və elektron KİV-də dərc edilməsindən öncə, ictimaiyyətlə əlaqələr Xidmətindən yazılı razılıq alınmalıdır(public.relations@krka.biz). Şirkət adından KİV-lər ilə əlaqəyə yalnız KRKA şirkətini ictimai mühitdə təmsil edən səlahiyyətli şəxslər cavabdehdir.

İşgüzar münasibətlərin tərkib hissəsi olan elektron əlaqə vasitəsilə KRKA müəssisəsi və onun məhsullarının reputasiyası yaradılır və şirkətin tanıdlıması artırılır. Elektron poçtdan KRKA şirkətinin nüfuzuna ziyan vurmadan, müvafiq şəkildə və düşünərək istifadə etmək lazımdır.

**Sosial şəbəkələrin** şəxsi həyatın toxunulmazlığını qorumadığını dərk etməli və orada özümüzü KRKA şirkətinin dəyərlərinə müvafiq olaraq aparmalı və şəxsi ləyaqətimizi qoruyub-saxlamalıyıq. Sosial şəbəkələrdən istifadə edərkən, özümüz və ya KRKA şirkəti haqqda yerləşdirdiyimiz informasiyanın orada daimi qaldığını və hamı üçün açıq olduğunu nəzərə almalıyıq (Şirkət əməkdaşlarının sosial şəbəkələrdən istifadəsi üzrə təlimat).

**Şirkətin mülkiyyətindən** ehtiyyatla, rasional şəkildə, onun məqsəd, daxili prosedur və təlimatlarına müvafiq olaraq istifadə etmək lazımdır. Hər bir əməkdaş şirkətin mülkiyyəti ilə lazımi məsuliyyətlə davranmalı,onu itmə, oğurlanma və icazəsiz istifadədən qorumalıdır. Şirkətin mülkiyyəti onun ehtiyacları üçün istifadə edilir və yalnız, istisna hallarda, razılaşdırılmış həcmdə şəxsi ehtiyac üçün işlədilə bilər (Avadanlıqla davranış zamanı şəxsi məsuliyyətin müəyyən olunması haqqda müddəa)

Həyata keçirilən işin xarakterindən asılı olaraq hər bir əməkdaş KRKA şirkətinin işgüzar maraqları və ya reputasiyasına maddi və ya mənəvi ziyan vuran və ya vura bilən bütün hərəkətlərdən qaçınmaq öhdəliyi daşıyır. Öz işimizdə biz KRKA şirkətinin korporativ vizual obrazının qayğısına qalmalı, eyni zamanda, KRKA şirkətinin təlimat və protokoluna, xidməti etiket qaydalarına həmişə riayət etməliyik.

## Rəhbərliyin öhdəliyi

Rəhbər işçilər öz funksiya və tapşırıqlaını yerinə yetirərkən şəxsiyyətin ləyaqətinə və KRKA şirkətinin əsas fəaliyyət prinsiplərinə hörmət göstərməlidirlər. Öz işi, idarəçilik stili ilə şirkətin rəhbəriyi və rəhbər kadrlar nümunə göstərərək, əməkdaş və digər maraqlı tərəflərə göstəriş və etik normalara müvafiq fəaliyyət göstərmələrinə imkan verən biznes və iş mühitinin yaradılmasında əsas faktor hesab edilir. Şirkətin rəhbərliyi və rəhbər işçilər bütün əməkdaşların öz hüquq, öhdəlik, vəzifə, şirkətin bütün müvafiq norma və daxili aktları ilə tanış olmaları və KRKA şirkətinin qayda, prinsip və dəyərlərinə əsaslanmaları ilə bağlı məsuliyyət daşıyırlar. Funksiya və vəzifələrini yerinə yetirərkən şirkət rəhbərliyi və bütün rəhbər işçilər mülkiyyətçi, əməkdaş və şirkət mülkiyyətinə məsuliyyətli münasibət göstərməlidirlər.

KRKA şirkətində biz etibar, hörmət, əməkdaşlıq, ümumi komanda işi, fasiləsiz təhsil, həmçinin məsuliyyətli və effektiv iş ənənəsi yaradırıq. Bilik, bacarıq, yenilikçilik, zəhmətsevərlik və ustalığımız bizə **sürətli və çevik** olmağımıza imkan verir. Dəyişən işgüzar mühitdə fəaliyyət göstərdiyimizdən, biz bazarın tələblərinə tez cavab verir, inkişafı izləyir, iş prosesinin müxtəlif tələblərinə uyğunlaşır və çevik həll yolları axtarırıq. KRKA şirkətində biz yaxşı qarşılıqlı münasibət qururuq. **Tərəfdaşlıq və etibar** bütün əməkdaş və partnyorlara qarşı hörmətli münasibətin əsasını təşkil edir. Biz **yaradıcılıq və effektivliyi** stimullaşdıran mühit yaradırıq. Əməkdaşlarımızın daima yeni ideyalar axtarmasını, onlar haqqda danışmasını, məqsədəuyğun olduğu halda bu ideyaların həyata keçirilməsini təşviq edirik. Biz öhdəliklərimizi tam imkanlarımız daxilində yerinə yetirir, bütün işlərimizi bacardıqca yaxşı və ən qısa zamanda həyata keçiririk.

## ÜMUMİ İŞGÜZAR ETİKA

### Saxtakarlıq və korrupsiyanın qadağan edilməsi

Funksiya və öhdəliklərini yerinə yetirərkən, hazırki kodeksin əsas etik qayda və müddəalarına, həmçinn KRKA-nın bütün mövcud norma və daxili aktlarına müvafiq davranış bütün KRKA şirkəti əməkdaşlarının aparıcı prinsipidir. **Hər hansı saxtakarlıq və korrupsiya ilə bağlı davranış ciddi şəkildə qadağan edilir.**

Saxtakarlıq və korrupsiyanın qarşısının alınması xüsusi müddəa ilə tənzimlənir (Saxtakarlığın qarşısının alınması, aşkarlanması və araşdırılması).

KRKA şirkətində işləyən bütün şəxslər özlərini etik, professional tərzdə və normalara uyğun şəkildə aparmalıdır. Bu səbəbdən də, KRKA-da:

- saxtakarlıq və korrupsiyanın qarşısı alınarkən və fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq aparılmasına riayət edərkən, biz sıfır tolerantlıq prinsipi göstəririk, yəni əməkdaş və işgüzar tərəfdaşların hər hansı qeyri-professional və ya qanundan kənar davranışına icazə verilmir;

- biz şirkətin işgüzar potensialı, əmlakı və məlumatlarından şəxsi və iqtisadi mənfəət əldə etmək üçün və ya üçüncü şəxsin xeyrinə istifadə etmirik;

- biz dövlət orqanları, vəzifəli şəxslər, işgüzar tərəfdaşlarımız və ya hər hansı bir şəxsin qərarına təsir etmək məqsədilə heç bir mənfəət vəd etmir və hədiyyə verməməklə yanaşı, işimizin yerinə yetirilməsi zamanı verilən qərarlarımıza təsir edə biləcək hədiyyələr qəbul etmir və hər hansı mənfəət qazanmırıq;

- yalnız işgüzar, mədəni, idman, təhsil və digər tədbirlər və ya görüşlər kimi konkret hallarda ənənəvi və ya geniş yayılan müəyyən hadisələrlə bağlı bahalı olmayan simvolik və ya

reklam xarakterli hədiyyələrin verilməsi və işgüzar naharların verilməsinə icazə verilsə də, onlar tədbirin əsas məqsədi ilə bağlı əndazəni aşmamalıdırlar;

- biz qanunsuz hərəkətlər, vədlər və ya böyük hədiyyələrin qəbul edilməsi, mənfət əldə edilməsi təəssüratı bağışlaya bilən hər bir situasiyadan uzaq durmağa çalışır və tərəfdaşlarımızın bunu belə başa düşmələri ilə bağlı ciddi ehtimal olduğu təqdirdə, biz işgüzar əlaqələrə daxil olmuruq.

Biz **daxili informasiyaya** girişi olan şəxslərin məlumatların məxfilik və həssaslıq səviyyəsi ilə tanış olmalarını təmin edirik. Cəmiyyətin maliyyə alətləri ilə biznes əməliyyatları aparılması zamanı qüvvədə olan daxili aktlara, bu informasiyaya malik əməkdaş və üçüncü şəxslərə tətbiq olunan nəzarət mexanizmlərinə malik olduğumuzdan, daxili informasiya əsasında mümkün sui-istifadə halları və biznes əməliyyatlarının qarşısını alırıq. Daxili informasiyaya girişi olan bütün şəxslərə müəyyən vaxt verilir və bu zaman daxilində  cəmiyyətin maliyyə alətləri ilə biznes əməliyyatları aparılmalarına icazə verilmir.

## Maraqların toqquşması

Fərdin şəxsi maraqları əməkdaşın KRKA-nın xeyrinə lazımi diqqət və obyektivliklə qərar qəbul etməsi və öz işinin yerinə yetirməsinə təsir göstərən və ya təsir göstərə bilən zaman maraqların toqquşması baş verir. Söhbət fərdin iqtisadi, şəxsi və ailə üzvlərinin marağı və ya onunla əlaqəsi olan şəxslərin marağından gedir.  Qarşıdurma şəxsin sahibkarlıq, elmi, siyasi və ya digər cəmiyyətlərdə iştirakı ilə bağlı yarana bilər.

Bütün əməkdaşların əsas prinsipi KRKA şirkətininin ən yüksək marağı naminə qərarlar qəbul etməli olduğu hesab edilir və buna görə də onlar KRKA-nın deyil, şəxsi maraqlarının onların qərarlarına təsir edə biləcəyindən və ya belə təəssürat bağışlayan situasiyalardan uzaq durmalıdırlar.

Şəxsi və ya başqa vəziyyətlərin işimizə və firkimizə və ya əməkdaşlarımızın iş və fikirlərinə təsir edə biləcəyini gördüyümüz təqdirdə, dərhal birbaşa tabeçiliyində olduğumuz  rəhbər şəxsə məlumat verməliyik. Biz maraqların qarşıdurması ilə bağlı hər bir hal barədə məlumat verməli və belə maraq mövcud olduğu zaman işgüzar qərarların qəbul olunması prosesindən kənar durmalıyıq.

Maraqların toqquşması xüsusilə, aşağıdakı hallarda mövcud olur:

- əməkdaş rəqabətaparan şirkətin və ya KRKA-nın işgüzar tərəfdaşının əsas mülkiyyətçisi olduqda;
- əməkdaş rəqabətaparan şirkətin və ya KRKA-nın  işgüzar tərəfdaşı olan şirkətlərin idarəedici və ya nəzarət orqanlarının üzvü olduğu halda;
- müqavilə və ya hər hansı başqa əsasda (ödənişli və ya ödənişsiz) işləyən əməkdaş  rəqib şirkət və ya KRKA şirkətinin işgüzar tərəfdaşı üçün hər hansı bir iş yerinə yetirərkən və ya xidmət göstərərkən;
- əməkdaş yaxın ailə üzvünü işə almaq haqqda qərar qəbul etdikdə və onları mükafatlandıran zaman.

Maraqların toqquşması ilə bağlı şübhə yarandıqda, bu haqqda rəhbərlik, Hüquq xidməti və ya risklərin idarə olunması və fəaliyyətin müəyyən edilmiş tələblərə uyğunluğunun təmin edilməsi üzrə səlahiyyətli şəxslə məsləhətləşmək lazımdır.

Əmək münasibətləri mövcud olan müddətdə əməkdaşlara yazılı razılıq olmadan özlərinin və ya başqalarının adından KRKA-nın fəaliyyət sahəsinə daxil olan rəqabəti təmsil edən və ya təmsil edə biləcək işləri yerinə yetirmək və ya sövdələşmələr bağlamağa icazə verilmir.

## Preparatların tanıdılması

Farmasevtika sənayesi və tibbi mütəxəssislər arasındakı münasibət ciddi etik standart, norma və tövsiyələrə müvafiq olmalıdır. **KRKA dərman preparatları və başqa məhsullarının reklam və tanıdılması** reklam haqqında qanuna müvafiq olaraq həyata keçirilib, dərman preparatlarının və başqa məhsulların məqsədəuyğun və təhlükəsiz istifadəsini təşviq edir.Dərman preparatları obyektiv şəkildə və xüsusiyyətləri mübaliğə olunmadan təqdim olunur. Məlumat alan şəxsin bir tam kimi dərk etdiyi reklamın hər bir ayrıca elementi və onun bütün hissələri dərman preparatının təsdiq edilmiş qısa xarakteristikasına müvafiq olaraq formalaşdırılır. Yanlış fikir oyatmamaq üçün dərman preparatının bütün xarakteristikası balanslı şəkildə təqdim edilir.Tibbi nümayəndələr normalara uyğun olaraq fəaliyyət göstərərir və məhsulun tanıdılması üzrə müvafiq təlim keçirlər.

Biz KRKA məhsulları haqqda professional informasiya vermək və professional ictimaiyyəti ən yeni tibbi kəşflər ilə tanış etmək, eyni zamanda, KRKA-nı etibarlı tərəfdaş kimi təqdim etmək məqsədi güdən **professionallar üçün konqres, simpozium və tədbirlərdə** iştiraklarını, istehsal və işlənib-hazırlanma sexlərinə ekskursiyalar və həmçinin, tədris tədbirləri təşkil edirik.

Biz tibb işçilərinin biliyini təkmilləşdirmək məqsədilə **elmi, tibbi və farmasevtik tədqiqatları**, tədris proqramlarını dəstəkləyir, onlara sağlamlıq, profilaktika, xəstəliklərin əlamətləri və mümkün müalicə metodları haqqda ümumi və obyektiv informasiya veririk.

Tibb işçiləri və təşkilatlar üçün nəzərdə tutulmuş **ianələr,** başqa maliyyə və qeyri-maliyyə vəsaitləri ən yeni tibbi biliklərə yiyələnmək, səhiyyə və tədqiqatlara yardım etmək üçün verilir. Onlar sənədləşdirilir və şəffaf olub, məhsullarımızın təyini, töysiyyəsi, buraxılışı, satışı və ya alışı ilə bağlı tibbi personal və təşkilata təsir etmək imkanını istisna edən üsulla həyata keçirilir.

Tibb işçiləri, təşkilat, assosiasiya və cəmiyyətlər üçün nəzərdə tutulmuş bütün maliyyə və qeyri-maliyyə vəsaitləri professional konqresslərdə iştirak, mühazirə oxumaq və sairə məqsədlər güdərək **şəffaf aparılır** və 30 iyun 2018-ci il tarixindən etibarən hər il KRKA-nın internet səhifəsində dərc olunur.

## Təchizatçılar və işgüzar tərəfdaşlar

Alıcı, təchizatçı və digər işgüzar tərəfdaşlarımızı daima yoxlayır, işgüzar münasibətlər nəticəsində meydana çıxan riskləri isə effektiv şəkildə idarə edirik. Beləliklə, biz nüfuzumuza ziyan vurulması ehtimalının və komersiya itkilərinin qarşısını alırıq.

Təchizatçı və işgüzar tərəfdaşlarımızdan aşağıdakıları gösləyirik:

- insan hüquqlarına hörmət edilməsi, insanın şərəf və şəxsi həyatına sayqı göstərilən iş mühitinin yaradılması;
- bütün qadağan edilmiş iş növlərindən imtina edilməsi;
- daxili nəzarət, risk və maraqların toqquşmasının idarə olunması sistemlərinin dəstəklənməsi və KRKA şirkətinə birbaşa və ya dolayı təsir edən maraqların qarşıdurması haqqda bizə dərhal məlumat verilməsi;
- antikorrupsiya qanunları və rəqabət sahəsi üzrə qanunvericiliyə riayət edilməsi, saxtakarlıq və sui-istifadənin bütün növləri ilə bağlı risklərin idarə olunması.

## Dürüst rəqabət

Biz rəqabətin qorunnmasını tənzimləyən bütün normalara əməl edir, öz davranışımızla rəqabətin qarşısını almır, onu məhdudlaşdırmır və rəqabət haqqda informasiyanı təhrif etmirik.

Rəqiblərimizə həssas işgüzar informasiyanı açıqlamırıq. Biz başqa müəssisələrlə rəqabətdə olan məhsulların qiymətləri, istehsalın məhdudlaşdırılması, satış, texniki inkşaf və ya yatırımlar, ərazi və satış üzrə bazarların bölünməsi, genişlənmə strategiyası, yeni məhsullar, istehlakçılar, satışın ümumi şərtləri və sairə haqqda uzlaşmaya getmirik.

Bazarda liderlik etdiyimiz təqdirdə, biz qeyri-dürüst satış və alış qiymətlərinin və ya başqa qeyri-dürüst işgüzar şərtlərin birbaşa və ya dolayı yolla müəyyən edilməsi, istehlakçıların ziyanına istehsalın, bazarın və ya texniki inkişafın məhdudlaşdırılması, rəqabət baxımından qeyri-münasib vəziyyətə salındığı təqdirdə,digər müqavilə tərəflərləri ilə müqayisəolunan sövdələşmələr üçün qeyri-bərabər şərtlərdən istifadə edilməsi və ya öz xarakteri və ya kommersiya istifadəsi ilə bağlı həmin müqavilələrin predmeti ilə əlaqəsi olmayan əlavə öhdəliklərin qəbul edilməsi tələbi ilə müqavilə qəbul edilməsi şərtini irəli sürmək məqsədilə ondan sui-istifadə etmirik.

## İCTİMAİYYƏT QARŞISINDA ÖHDƏLİK

Biznes proseslərində müvəffəqiyyətlərimizin işlədiyimiz ictimai mühitin uğurlarına əsaslandığını dərk edirik.

**Fəaliyyət göstərdiyimiz mühitin müxtəlif tədbirlərini dəstəkləyərək, humanitar fəaliyyətdə iştirak edərək, elm, təhsil, incəsənət və mədəniyyətin inkişafına yardım edən və** ətraf mühitin qorunmasına kömək edən **müxtəlif növ fəaliyyətlərə qoşularaq** ictimai öhdəliyimizi nümayiş etdiririk. Ümumi sosial inkişafa yönəlmiş, maksimum sayda insanın həyat keyfiyyətinin yaxşılaşmasına töhfə verən, gənclərlə işi gücəndirən, KRKA-nın *“Sağlam həyat tərzi uğrunda”* missiyasına müvafiq fəaliyyət göstərən qruplara, ayrı-ayrı fərdlərə və uzunmüddətli layihələrə üstünlük verilir.

Öz missiyamıza uyğun olaraq, biz müxtəlif müəssisə və cəmiyyətlərin fəaliyyət keyfiyyətinin artırılmasına yardım edən avadanlıqların yenilənməsi və yaxşılaşmasına da vəsaitlər ayırırıq. Biz yerli mühitdə və Sloveniya hüdudlarından kənarda çoxsaylı mədəni layihələri dəstəkləyirik.

Həm birbaşa KRKA obyektlərinin yaxınlığında yaşayan insanlar, həm də geniş mənada bölgə əhalisi ilə əməkdaşlıq edərək, ətraf mühitin qayğısına qalır və ekoloji qaydalara riayət edirik. Hazırki fəaliyyətimiz, inkişaf strategiyamız və investisiya layihələrinə enerjidən effektiv istifadə edilməsi daxil edilərək, sabit inkişaf haqqda tövsiyələrə müvafiq olan ətraf mühitə vurulan zərərli təsirin azaldılmasına kömək edir. Zərərin azaldılmasına və nəticədə, ilkin enerji mənbələrindən daha effektiv istifadə etməyə yardım edən avadanlıq və prosedurlara üstünlük verilir.

Fəaliyyət yerimiz və həyata keçirdiyimiz fəaliyyət çərçivəsində biz tullantıların miqdarının azaldılması və onların daha ardıcıl və ayrı yığılması, sudan və bütün iş vasitələrindən rasional stifadə məqsədilə, həmçinin, suyun daha az çirklənməsi üçün bütün səylərimizdən istifadə edirik. Kimyəvi maddələrlə düzgün və təhlükəsiz işlə fövqəladə vəziyyətlərin meydana gəlməsi riskini azaldırıq.

## ŞİRKƏT FƏALİYYƏTİNİN MÜƏYYƏN OLUNMUŞ TƏLƏBLƏRƏ MÜVAFİQLİYİNİN TƏMİN OLUNMASI ÜZRƏ SƏLAHİYYƏTLİ ŞƏXS

Fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxs, şirkət səviyyəsində səlahiyyətli direktorlar və xidmət rəhbərləri ilə birlikdə şirkət fəaliyyətinin müəyyən olunmuş tələblərə uyğun olması ilə bağlı riskin daimi dəyərləndirilməsi, müvafiq tədbirlərin koordinasiyası, effektiv daxili nəzarət sisteminin təklifi və həyata keçirilməsi, məlumatlılığın artırılması, fəaliyyətin bütövlüyünün möhkəmləndirilməsi üzrə tədris və konsultasiyanın aparılması, qanunazidd davranış və qüvvədə olan norma, daxili qayda və etik prinsiplərin pozulması haqqda məlumatların araşdırılması, həmçinin KRKA şirkəti fəaliyyətinin müəyyən olunmuş tələblərə cavab verməsi haqqda hesabatların şirkət rəhbərliyinə təqdim olunmasına cavabdehdir.

Fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxs fəaliyyətin müəyyən olunmuş tələblərə uyğun olmasının həyata keçirilməsi, hazırki kodeksin normaları və KRKA şirkətində pozuntular haqqda məlumat verilməsi qaydalarına əməl edilməsinə nəzarət edir və onu istiqamətləndirir. Departament, şöbə və müstəqil xidmətlərin rəhbərləri fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxs ilə fəaliyyətin müəyyən

olunmuş tələblərə cavab verməsinin təmin olunması ilə bağlı əməkdaşlıq edir və məsuliyyət daşıdıqları müvafiq tədbirlərin həyata keçirilməsi və bu sahədə fəaliyyətin müəyyən edilmiş tələblərə riayət edilməsinə cavabdehlik daşıyırlar.
Filial və nümayəndəliklərin fəaliyyətlərinin müəyyən olunmuş tələblərə müvafiq olmasına onların direktorları məsul olub, fəaliyyətin müəyyən olunmuş tələblərə uyğun olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxs qarşısında hesabat verirlər. Filial və nümayəndəliklərin ölçüsünü nəzərə alaraq,onlara fəaliyyətin müəyyən edilmiş tələblərə cavab verməsinin təmin edilməsi üzrə yerli səlahiyyətli şəxslər təyin etmək olar.

## QANUNAZİDD DAVRANIŞ HAQQDA MƏLUMAT

Hazirki kodeksin pozulması fəaliyyət öhdəliklərinin pozulmasına gətirib çıxara və intizam tədbirlərinin həyata keçirilməsi və/vəya əmək müqaviləsinin adi və ya təcili qaydada pozulması prosedurunun tətbiq edilməsi ilə nəticələnə bilər. KRKA şirkəti tərəfdaşlarının etik və işgüzar davranış qaydalarını pozması işgüzar münasibətlərin dayandırılmasına səbəb ola bilər.

KRKA əməkdaşları qanunauyğun davranışla bağlı prinsip, qayda və tövsiyələrə həmişə riayət etməli və özlərini məsul aparmalıdır. Öz davranışımızın, əməkdaşlarımız və ya üçüncü şəxsin davranışlarının kodeks, norma və daxili aktlara müvafiq olmadığı haqqda şübhə yarandıqda, biz birbaşa rəhbərlik və ya struktur bölmənin direktoruna məsləhət üçün müraciət etməliyik.İşin xarakteri və ya şərtlər buna yol vermədiyi təqdirdə, məsləhət üçün Hüquq xidməti və ya fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxsə müraciət etmək lazımdır.

**Əlaqədar şəxslər və telefon nömrələri**

- şirkət fəaliyyətinin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxs: (07) 331 2600
- Hüquq ximətinin rəhbəri: (07) 331 95 95

Hazırki kodeksin,  KRKA-nın daxili akt və normalarının pozulması ilə bağlı əsaslı şübhə yarandığı təqdirdə, fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxsə məlumat vermək lazımdır.Pozuntu haqqda elektron poçt ilə də xəbər vermək olar (compliance.officer@krka.biz).

Hər bir əməkdaş təlimat və ya müqavilənin qanunvericilik, KRKA-nın daxilii qaydaları və hazırki kodeksə uyğun gəlmədiyi zaman, onun yerinə yetirilməsini dayandırmalı və bu haqqda məsul şəxslərə məlumat verməlidir. Bütün pozuntular ciddi şəkildə araşdırılacaq və müzakirə ediləcəkdir.

KRKA məlumat verən şəxslə bağlı məlumatları məxfi saxlamaq, bu məlumatlarla iş zamanı ehtiyatlı davranmaq və cavab tədbirləri ilə bağlı müvafiq müdafiəni təmin etmək öhdəliklərini götürür.

Pozuntular haqqda fərdi məlumatların verilməsinin qeyri-etik və uyğun olmayan davranışları azalda, aradan qaldıra və ya qarşısını ala bildiyindən, KRKA əməkdaşları tərəfindən pozuntular haqqda fərdi məlumatların verilməsini stimullaşdırır.

## YEKUN  MÜDDƏALAR

KRKA-nın davranış kodeksi 15.03.2018-ci il tarixdə şirkətin İdarə Heyəti tərəfindən “KRKA, d.d., Novo Mesto”təsdiq edilmişdir və 01.05.2018-ci il tarixində qüvvəyə minir.

Davranış kodeksi şirkətin daxili internet  səhifəsində (Krkanet) və xarici istifadəçilər üçün KRKA şirkətinin internet səhifəsində dərc ediləcəkdir.

Hazırki kodeks qüvvəyə mindiyi gün şirkətin 02.12.2009 tarixli Etik kodeksi "KRKA, Farmasevtika zavodu, d.d., Novo mesto" (Krka, tovarna zdravil, d.d., Novo mesto) hazırki kodekslə tam əvəzlənərək qüvvəsini itirəcəkdir. Beləliklə, KRKA şirkətinin davranış kodeksi qeyd edilən etik kodeksin əvəzləyicisidir.

Hər bir yeni əməkdaş giriş seminarında KRKA-nın davranış Kodeksi ilə tanış olur.

Bütün KRKA əməkdaşları KRKA-nın davranış Kodeksinin qüvvəyə mindiyi gündən sonra bir il ərzində onunla tanış olmalıdırlar.

Kodeks yoxlanılır və zərurət yarandığı halda, iki ildən bir yenilənir.